
*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 136 (23.778)

*30 iyul 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzi istifadəyə verilib





Muxtar respublikada nəşriyyat işinin müasir səviyyədə təşkili diqqətdə saxlanılır. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni kompleks istifadəyə verilmiş, ən müasir mətbəə avadanlıqları quraşdırılmış, maddi-texniki baza gücləndirilmişdir. Birliyin Naxçıvan şəhərindəki Kitab Evində yeni sərgi-satış mərkəzinin yaradılması da bu sahədə görülən işlərin davamıdır.

İyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, mərkəz sərgi-satış zalından, 2 iş otağı və anbardan ibarətdir. Burada təmir işləri aparılmış, fiber-optik internet və telefon xətti çəkilmiş, müasir barkod aparatı və kompüter alınmış, videonəzarət sistemi quraşdırılmışdır. Zalda “Ümummilli lider Heydər Əliyevə həsr olunmuş ədəbiyyatlar”, “Naxçıvan Muxtar Respublikasına həsr olunmuş elmi ədəbiyyatlar”, “Oxunması zəruri olan kitablar”, “Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi üzvlərinin əsərləri”, “Məktəbli ləvazimatları” olmaqla, 5 bölmə yaradılmışdır.

Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar, müstəqillik illərində Naxçıvanla bağlı çap olunmuş elmi ədəbiyyatlar, oxunması zəruri olan kitablar, Yazıçılar Birliyi üzvlərinin əsərləri, müxtəlif bədii ədəbiyyatlar, dəftərxana ləvazimatları, müəllimlər üçün dərs planları, lüğət dəftərləri, hüsnxətlər, dəftərlər, məktəbli kitabçaları, ümumilikdə, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş 15 minə yaxın məhsul satışa çıxarılmışdır. Həmçinin burada “Nəşriyyat xidmətləri” bölməsi yaradılmış, mətbəə işlərinin görülməsi üçün çoxfunksiyalı çap avadanlıqları qoyulmuşdur. Mərkəzdə 3 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri mərkəzin əhəmiyyətini vurğulayaraq demişdir: Muxtar respublikada nəşriyyat işi yüksək səviyyədə təşkil olunmuşdur. Bu da mətbəə mədəniyyətinin formalaşmasının və ümumi inkişafın göstəricisidir. Artıq muxtar respublikada məktəbli ləvazimatlarının, idarə və müəssisələrə aid blankların çapı həyata keçirilir. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzinin fəaliyyəti həm çap olunmuş məhsulların sərgi-satışını təşkil etmək, həm də dövlət büdcəsi ilə maliyyələşən təşkilatları dəftərxana ləvazimatları ilə təmin etməkdən ibarətdir. Birlik geniş imkanlara malikdir və bundan da səmərəli istifadə olunmalıdır. Qazanılmış təcrübə imkan verəcəkdir ki, dəftərxana ləvazimatları təminatı bir yerdən həyata keçirilsin, standartlara uyğun və keyfiyyətli məhsullar istehsal olunsun, büdcə təşkilatları isə dəftərxana ləvazimatları ilə təmin olunsun. Mərkəzin fəaliyyət göstərməsi həm də muxtar respublikanın tanıdılmasında böyük əhəmiyyətə malik olacaqdır. Çünki burada ölkəmizin və Naxçıvanın tarixini, mədəniyyətimizi, milli dəyərlərimizi əks etdirən kitablar satışa çıxarılıb.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzinin fəaliyyətə başlaması yenilikdir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, mətbəə işinin müasir tələblər səviyyəsində qurulması bu gün muxtar respublikada nəşr olunan bütün qəzetlərin yüksək keyfiyyətlə çapına, həmçinin kitabların müasir tələblərdə nəşrinə imkan verir. Ali Məclisin Sədri dövlət idarə və müəssisələrinə aid dəftərxana ləvazimatlarının qanunvericiliyə uyğun hazırlanması və mərkəzin fəaliyyətinin təşkili barədə müvafiq tapşırıqlar vermişdir.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin direktoru Pərvin Məmmədov kollektiv adından minnətdarlıq etmiş, yaradılan şəraitdən səmərəli istifadə etməklə fəaliyyətlərini günün tələbləri səviyyəsində quracaqlarına söz vermişdir.

Sonra Ali Məclisin Sədri Kitab Evindəki digər dəftərxana ləvazimatları, eləcə də idman mallarının satış mərkəzlərində də olmuş, göstərilən xidmətlərlə maraqlanmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Məzunlara “Qızıl” və “Gümüş” nişanlar, fərqlənmə attestatları təqdim olunub

*Dünən Naxçıvan Dövlət Texniki Kollecində 2020-2021-ci tədris ilində məktəbi xüsusi nailiyyətlə başa vuran məzunlarla görüş keçirilib.*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, muxtar respublikamızda aparılan məqsədyönlü təhsil siyasəti çərçivəsində istedadlı şagirdlər dövlət qayğısı ilə əhatə olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təhsil və şahmat sahəsində fərqlənən 2 şagirdin adı Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının “Qızıl kitabı”na yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Qeyd edilib ki, 2020-2021-ci tədris ilində təhsildə tətbiq edilən innovasiyalarla yadda qalmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Lisey yaradılmış, muxtar respublikada həyata keçirilən təhsil siyasətinə, təhsil quruculuğuna, cəmiyyətin elm və təhsil üzrə ümumi maraqlarının təmin edilməsinə yönəlmiş televiziya və radio proqramlarının yayımını təmin etmək məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzi yaradılmış, şagirdlərin biliklərinin yoxlanılması, imtahanlarda yüksək nəticələr əldə etmələri və onlarla aparılan işin keyfiyyətinin yüksəldilməsi məqsədilə tədris ili ərzində buraxılış və qəbul formatında sınaq-test imtahanları keçirilmişdir. Tədris ili ərzində innovativ dərnəklər layihəsinin əhatə dairəsi genişlənmiş, Şərur, Culfa və Ordubad rayonlarında innovativ dərnəklər yaradılmış, 2000-dən çox şagirdin həmin dərnəklərdən yararlanması təmin edilmişdir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə noyabr ayından etibarən muxtar respublikada STEAM təhsil metodunun tətbiqinə başlanılmış, 15 təhsil müəssisəsində STEAM kabinələri yaradılmış və kabinələr zəruri avadanlıqlarla təchiz edilmişdir. Çıxışda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında” Sərəncamının icrası istiqamətində görüləcək işlər barədə də məlumat verilib.

Qeyd olunub ki, mövcud qaydalara əsasən ümumtəhsil məktəblərində təhsillərini xüsusi nailiyyətlərlə başa vuran şagirdlər “Qızıl” və ya “Gümüş” nişanla təltif olunur, onların adı oxuduqları məktəbin “Şərəf kitabı”na yazılır. Bu tədris ilində məzunlardan 75-i təhsili xüsusi nailiyyətlə başa vurub. Bunlardan 17-si “Qızıl”, 17-si “Gümüş” nişana, 41-i isə fərqlənmə attestatına layiq görülüb. IX siniflər üzrə isə 121 şagirdin bilik səviyyəsi və təhsildəki uğurları digərlərindən fərqlənmə attestatı ilə qiymətləndirilməklə fərqləndirilib.

İyulun 14-də və 15-də II və III ixtisas qrupları, iyulun 28-də isə I və IV ixtisas qrupları üzrə qəbul imtahanlarının keçirildiyini bildirən Rəhman Məmmədov orta məktəbi xüsusi nailiyyətlə başa vuran məzunlara təhsilin növbəti pilləsində uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Qızlar Liseyinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva və Şahbuz rayon Keçili kənd tam orta məktəbinin məzunu Sərcan Məsmalıyev çıxış edərək təhsilin inkişafına göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Sonra məzunlara “Qızıl” və “Gümüş” nişanlar, həmçinin fərqlənmə attestatları təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluqlarının təmin olunması, həmçinin onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsinə dair maarifləndirici seminar keçirilib.***

## Maarifləndirici seminar keçirilib



Tədbiri giriş sözü ilə açan Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası əhalinin məşğulluğu sahəsində də sosial layihələrin icrasına əlverişli zəmin yaradıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluğunun və sosial müdafiəsinin təmin edilməsində özünü göstərməklə, müvafiq kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdırıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək bildirib ki, sağlamlıq imkanları məhdud olan şəxslərin və qadınların məşğulluğunun təmin edilməsi muxtar respublikamızda diqqət mərkəzindədir. Belə şəxslərin məşğulluğunun təmin edilməsi və əmək hüquqlarının qorunması sahəsində görülən işlərdən, bu sahədə mövcud qanunvericilik aktlarının əhəmiyyətindən bəhs edən nazir müavini bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 31 may 2018-ci il tarixdə imzaladığı “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun icrasının vacibliyini diqqətə çatdırıb.

Nazirliyin əməkdaşı Elmin Fərəcov sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydası, həmin kvota üzrə müəyyən olunmuş iş yerləri üzrə işəgötürənlərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətlərindən bəhs edib.

Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov müəssisə və təşkilatlarda müvafiq kateqoriyadan olan şəxslərin və qadınların əmək hüququ, onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsi, imtiyazlar və əlavə təminatlar haqqında danışıb.

Çıxışlar zamanı slaydlardan istifadə olunub, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***



# İqtisadiyyat

İstehsal müəssisələri

## “Badamlı” – yurdumun gözəl neməti



*Bəşər sivilizasiyasının mədəniyyət ocağı olan Naxçıvanımız özünəməxsus təbiət gözəllikləri, zəngin flora və faunası ilə bu yurdun seyrinə gələnləri daim özünə heyran edir. Diyarımızın bağ-bağatlarında yetişən meyvələri, münbit torpaqlarında boyverən bitkiləri, ucu şişpapaqlı dağlarının bağrını yara-yara qaynayıb çağlayan buz bulaqları can dərmanıdır. Ekoloji saf məhsulları, gəzib-görməli yerləri, təmiz havası olan bu məkan bütün fəsillərdə bar-bəhərlərini, dillər əzbəri olan nemətlərini üzə çıxarır. Həmin nemətlər sırasında dünyanın hər yerində məşhur olan, insanlara unudulmaz damaq dadı bəxş edən mineral bulaqlarının adı da tez-tez çəkilir.*

İsti yay günlərində insanların sərin sulara olan tələbatı daha da artır. Belə bir vaxtda diyarımızın mineral bulaqları insan zəhməti ilə qablaşdırılaraq ekoloji təmiz məhsul kimi süfrələrimizin əvəzolunmaz nemətinə çevrilir. Bugünkü söhbətimiz də diyarımızın brend məhsullarından olan “Badamlı” mineral suyu haqqındadır.

Ölməz sənətkarımız Rəşid Behbudov “Badamlı” ifası ilə “Badamlı – nə sərin! Badamlı – nə şirin! Ba-





damlı – adı var! Badamlı – dadı var! ” misralarını dillər əzbəri etməklə ürəyimizə sərinlik, könlümüzə xoş ovqat gətirmiş, yurdumuzun bu əvəzsiz nemətini “Badamlı məzəli, süfrələr gözəli” deyib tərənnüm etmişdi. Bu gün isə həmin nemət adıyla-dadıyla dünyanın hər yerində diyarımızın zəngin təbiətindən, ruzibərəkətindən xəbər verir.

Məlumat üçün bildirək ki, 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru, mərhum alim Əziz Əsgərovun rəhbərliyi altında Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində aparılan elmi-tədqiqat işlərinin nəticəsində “Badamlı” mineral bulağı aşkar edilib. Əziz Əsgərov suyun kəşfilə bağlı xatirələrində yazır: “Müəyyən marşrut üzrə hərəkət edərkən hansısa çeşmənin yanında tədqiqat işlərinin aparılması üçün bəzi yardımçı əşyaları daşıyan ulağı suvarmaq istədim. Gördüm heyvan su içmədi. Suyun xoşagəlməz tamı var idi. Çeşmə boyu yuxarı gedib onun mənbəyini tapdım. Nümunədən başa düşdüm ki, bu qiymətli bulaqdır. Laborator analizlər də bunu təsdiq etdi. Sevincimin həddi-hüdudu yox idi”.

1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə suyun istehsalına başlanılıb. Zaman keçdikcə “Badamlı”nın dillər əzbəri olan dad-tamı diyarımızın hər yerinə yayılıb və xeyli sayda insanı özünə cəlb edib. Bu şəfalı suyun sorağına gələnlər həm burada çalışıb öz halal ruzilərini qazanıb, həm də burada özlərinə yeni evlər tikib, yaşayış məskəni salıblar. Müəssisənin fəaliyyəti genişləndikcə burada yaşayanların da sayı artmış, 1961-1967-ci illər ərzində həmin müəssisədə işləyənlər üçün 6 yaşayış binası da inşa olunmuşdur. Beləliklə, bu yaşayış yerləri genişlənərək, burada yaşayan insanların sayı artaraq “Badamlı” suyunun şərəfinə eyniadlı indiki Badamlı qəsəbəsi yaranmışdır.

Ötən əsrin 90-cı illərində hər sahədə olan durğunluq, gerilik iqtisadi sahədə də özünü bariz şəkildə göstərirdi. Böhranın ağır məngənəsində olan Naxçıvanımızda quru yolunun olmaması, bədxah düşmənlərimiz ermənilərin ərazi iddiaları yurdumuzun iqtisadiyyatına öz mənfi təsirini göstərirdi. Bunun nəticəsi idi ki, zəngin və faydalı tərkibi ilə fərqlənən “Badamlı” suyunun Keçmiş Sovet İttifaqı dövründə 15 müttəfiq respublikaya satılaraq alıcılar tərəfindən böyük rəğbət qazanmasına, qısa zamanda bu qədər məşhur olmasına, satışının artmasına baxmayaraq, 90-cı illərdə sovet ittifaqı dağıldıqdan sonra bazar iqtisadiyyatına keçid və dövrün çətin prosesləri ilə əlaqədar yaranan çətinliklərə görə ixracı dayandırıldı.

Bu da bir faktdır ki, ötən əsrin 80-ci illərində “Badamlı”, “Sirab”, “Vayxır”, “Darıdağ”, “Nəhəcir”, “Gülüstan” mineral suları ölkəmizin tələbatını ödəməklə yanaşı, bu məhsulların 60 faizi yaxın-uzaq ölkələrə ixrac edilirdi. 1980-ci ildə istehsal olunmuş 134 milyon butulka suyun 80 milyonu SSRİ-nin 150-dən çox şəhərinə göndərilmişdi. 1970-1980-ci illərdə “Badamlı” istehsalı müəssisəsi tamamilə müasirləşdirildikdən sonra burada qablaşdırılan suyun 90 faizi respublikamızdan kənara aparılırdı.

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə onlarla fabrik, zavod, kombinat, məktəb, məktəbəqədər müəssisələr, kənd təsərrüfatı təyinatlı obyektlər, ticarət, məişət, sosial-mədəni müəssisələr kimi “Badamlı” mineral suyu, o cümlədən digər mineral su zavodları da bu uğurlu inkişafdan öz bəhrəsini aldı.

“Badamlı” özündə insan sağlamlığı üçün faydalı olan bir çox elementləri birləşdirir. Suyun tərkibində yod, brom, mis, borat turşusu vardır. “Badamlı” iştahanı artıran, həzm prosesini yaxşılaşdıran, susuzluğu yatıran gözəl süfrə suyu kimi məşhurdur. Bu su mədə-bağırsaq, qaraciyər və öd kisəsi xəstəliklərinə qarşı müalicədə faydalıdır. Bu elə bir dəyərdir ki, istifadə edildiyi təqdirdə insanın günlük mineral ehtiyacının əhəmiyyətli bir hissəsini qarşılayır. Bununla yanaşı, uzunmüddətli istifadə zamanı orqanizmdə mineral artıqlığı yaratmır. Onun tərkibi Rusiyanın Kislovodsk şəhərindəki “Narzan” mineral suyu ilə eynidir.

Aldığımız məlumata görə, hazırda “Badamlı” suları “Badamlı Mineral Sular” MMC tərəfindən Avropada və dünyada qəbul edilən ən yüksək texnologiyaların tətbiqi əsasında, qapalı şəraitdə, insan təması olmadan qablaşdırılır. Müəssisədə həyata keçirilən doldurma prosesi Fransanın “Sidel” firmasının istehsalı olan avadanlıqlar vasitəsilə həyata keçirilir. Bununla yanaşı, müəssisədə Almaniya və ABŞ istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada suyun keyfiyyətinə mütəmadi nəzarət olunur, fiziki-kimyəvi, mikrobioloji və orqanoleptik analizlər aparılır.

“Badamlı” qazlı-qazsız olmaqla, 9 müxtəlif həcmdə – 300 və 600 millilitrlik şüşə butulkalarda, 300 millilitrlik, 500, 1000 və 1500 millilitrlik PET butulkalarda, 5, 10 və 19 litrlik damacan qablaşmalarda istehsal olunur. Qazlı sularda ümumi minerallıq 400-500 milliqram/litr təşkil edir. 2020-ci ildən etibarən isə Badamlı qəsəbəsində zavodun yeni binası tikilərək istifadəyə verilib. 70 işçi heyətinin çalışdığı günlük istehsal potensialı 500.000 şərti butulka təşkil edir.

Həmsöhbətimiz, zavodun baş mühasibi Ramil Əliyevin verdiyi məlumata görə, zavodda yeni çeşiddə məhsulların Azərbaycanda bir ilk olan “Buva” uşaq sularının, o cümlədən premium şüşələrdə qazlı, qazsız (330, 750 millilitrlik) olmaqla, iki çeşiddə suların istehsalına başlanılıb.

Hazırda bu mineral süfrə suyu Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri, İraq, Qazaxıstan kimi bir çox ölkələrdə də alıcılara unudulmaz damaq dadı bəxş edir.

*Biranlıq bu yurdun nemətlərini göz önünə gətirdikdə istər-istəməz bir fikir adamın ağlından keçir. “Ana təbiət bu yurddan heç bir varını əsirgəməyib”. Əslində, Uca Yaradan bu diyarın insanlarına ruzisini özündən əvvəl verib. Bu yurda elə səxavətlə naz-nemətlər bəxş edib ki, hər tikəsi, hər damlası insan üçün unudulmaz damaq dadı, can dərmanıdır. İçin yurdumuzun “Sirab”ından, “Badamlı”sından, “Darıdağ”ından, için ki, ürəyiniz sərin, canınız sağlam olsun.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

***Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafı da daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə aparılan islahatlar kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafına səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş Dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan verib, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılıb. Qəbul edilən Dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər məhsul bolluğuna zəmin yaradıb, təsərrüfatın müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirib.***

## Torpağa bağlılıq halallığa bağlılıqdır

Cəbhə bölgəsi olan Sədərək rayonunda da kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə aqrar sektorda kompleks tədbirlər həyata keçirilib, daxili bazarda məhsul bolluğu yaradılıb. Rayonda hansı əkin sahəsinə üz tutsaq, orada zəhmətkeş kənd adamlarını görərik. Torpağa bağlılıq o deməkdir ki, insan ömrünü təsadüfi qazanclara deyil, həqiqi zəhmətə bağlayıb. Torpaq da ümidini ona bağlayanlara heç vaxt biganə qalmayıb, onları naümid qoymayıb.



Sədərək kəndində torpağın dilini bilən zəhmətkeş insanlar çoxdur. Onlardan biri də Nurəddin Əliyevdir. O, torpağa bağlılığı, zəhmətə sevgini ata-babalarından öyrənib. Torpağı əkib-becərməyi özünün alın yazısı bilib və bununla qürur duyub. Yaşa dolduqca, torpağın sonsuz səxavətinin şahidi olduqca ona daha çox bağlanıb. O, torpağı əkib-becərdikcə torpaq da onun başını uca edib. Zəhmətkeş əkinçi 15 hektar sahədə taxıl əkib. Məhsuldarlıq da pis olmayıb. 63 tondan artıq taxılı olub. Yığdığı taxılın bir hissəsini satışa çıxarıb. Qalanını üyüdüb una çevirib. Bir hissəsini isə yem kimi saxlayıb. Yeni əkin mərhələsinə hazırlıq işləri görür.

Deyir ki, torpaq suya susadığı kimi insanoğlunun zəhmətinə, alın tərinə də möhtacdır. Hər zaman ondan qulluq tələb edir, onu zəhmətə səsləyir. Dünyada halallıq axtaran əli qabarlı insanlar torpağın bu harayına həmişə hay verib, ona üz tutublar. Zəhmət adamı deyir ki, əkinçilik də digər işlər kimi təcrübə tələb edir. İşlədikcə, torpağın dilini öyrəndikcə daha çox məhsul götürürsən. Kənd təsərrüfatı bitkiləri vaxtında suvarılmadıqda, hətta vaxtından əvvəl və ya normadan artıq suvarıldıqda belə, məhsuldarlığa təsir göstərir. O da çalışdığı illər ərzində topladığı təcrübəyə əsaslanaraq torpağı aqrotexniki qaydalara uyğun olaraq əkib-becərməyə çalışır. Belə olduqda torpaq daha çox məhsul verir. Taxılçılıqda yüksək məhsuldarlığa nail olmağın müxtəlif şərtləri vardır. Bunlardan biri də növbəli əkin sisteminə əməl etməkdir. Belə halda taxıl sahəsində alaq otları olmur və yaxud çox az olur. Alaq otlarının olması taxılın yaxşı inkişafına və bol məhsul götürülməyə zəmin yaradır. Onu da qeyd edim ki, ehtiyac olduqda alaq otlarına qarşı kimyəvi mübarizə üsulundan da istifadə edirik. Yüksək məhsuldarlığın əsas şərtlərindən biri də gübrələrin torpağa vaxtında verilməsidir. Bu da, təbii ki, yüksək məhsuldarlığa təminat verir.

Kənd təsərrüfatı ilə ardıcıl və sistemli şəkildə məşğul olmaq lazımdır. Onda işin səmərəsi daha çox olur. Taxıl əkirsənsə, deməli, iribuynuzlu heyvanlara yem ehtiyatı yaranır. Bu da heyvandarlıqla məşğul olmağa imkan verir. Nurəddin Əliyev bunları nəzərə alıb heyvandarlıqla da məşğul olur. Deməli, süd məhsullarını da bazardan almağa ehtiyac qalmır. Torpağın əvəzolunmazlığı göz qabağındadır. Amma onun bu qiymətli sərvətdən umacaqları bununla yekunlaşmır. O, fəaliyyətini daim genişləndirmək fikrindədir. Torpağı əkib-becərmək üçün dövlətimiz ildən-ilə daha münbit şərait yaradırsa, biz niyə bundan bəhrələnməyək? Bol məhsul kəndlini torpağa daha çox bağlayır. Onun gələcəyə ümidlərini artırır.

Bu gün kənd adamı dövlətimizin qayğısı ilə əhatə olunub. Bütün bunlardan səmərəli istifadə edən insanlar kənd təsərrüfatının inkişafına böyük önəm verir, özünüməşğulluğu təmin edir, həm də bol məhsul istehsalı vasitəsilə daxili bazarı zənginləşdirməyə çalışır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Əhaliyə nümunəvi xidmət göstərilir

Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda əhalinin rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yeni avtobuslar alınaraq muxtar respublikaya gətirilib, rayon mərkəzlərinə və bütün kəndlərə iritutumlu və rahat avtobuslarla gediş-gəliş təmin edilib, müasir avtovağzal binaları, avtomobil parkları istifadəyə verilib. Cari ildə də bu tədbirlər davam etdirilir. Belə ki, hazırda Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının, Şərur şəhərində avtovağzal binasının tikintisi uğurla icra olunur.

Muxtar respublikada nəqliyyatın əsas sahələrindən olan dəmir yolunun inkişafı üzrə də mühüm tədbirlər həyata keçirilir, infrastruktur yenidən qurulur. Belə ki, son illərdə vağzal binalarında, stansiya idarəetmə mərkəzlərində, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasında, digər inzibati və yardımçı binalarda əsaslı təmir işləri aparılıb. Bu ilin 6 ayında da dəmir yolunun ayrı-ayrı sahələrində quruculuq tədbirləri diqqətdə saxlanılıb. Belə ki, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında rabitə qovşağının anbarının əsaslı təmiri başa çatdırılıb, polis şöbəsi üçün inzibati binanın tikintisi, nəzarət-ölçü cihazları sexinin əsaslı təmiri aparılır, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsinin binası, Dövriyyə Deposu binası və təmir sexi yenidən qurulur. Həmçinin Culfa rayonunda İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının və Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

Görülən kompleks tədbirlər öz müsbət nəticəsini verib, 2021-ci ilin yanvar-iyun aylarında muxtar respublikada nəqliyyat sektorunda 7 milyon 584 min 300 ton yük, 48 milyon 107 min 700 sərnişin daşınıb ki, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 0,3 faiz, sərnişin daşınması 2 faiz artıb.

**Xəbərlər şöbəsi**

# Ortaq mədəniyyətlərə, eyni soykökə malik iki xalqın gəncliyi tarixi məkanda gələcək zəfərlər naminə birləşib



*“Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi”nin iştirakçıları proqrama uyğun olaraq Ordubad şəhərinə səfər ediblər. Burada Tarix-Diyarşünaslıq Muzeyi, Yusif Məmmədəliyev, Məhəmməd Tağı Sidqi və Məmməd Səid Ordubadinin ev-muzeyləri ilə tanış olublar. Daha sonra “Duzdağ” hoteldə düşərgə iştirakçılarına Azərbaycan tarixi və mədəniyyətinə dair təlim keçirilib.*

Təlimi giriş sözü ilə Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov açaraq bildirib ki, güclü təməllər üzərində qurulub-yaradılan Azərbaycan-Türkiyə qardaşlığı sağlam müstəvi üzərində bu gün də davam etməkdədir. İndiyə qədər keçirilən düşərgələrin ən mötəbəri burada qardaş ölkə ilə birlikdə təşkil olunandır. Bu, gənclik üçün böyük qürur və sevincdir. Qədir Xəlilov qalib ölkə kimi iştirak etdikləri bu tədbirin yüksək səviyyədə təşkilinə görə muxtar respublika rəhbərinə, Naxçıvan Muxtar Respublikası Gənclər Fonduna və Türkiyə Gənclik Vəqfinə minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə çoxəsrlik tarixə malikdir. Müxtəlif sənət növlərimizin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

Akademik İsmayıl Hacıyev Moskva və Qars müqavilələrinin önəmindən danışaraq sözügedən müqavilələrdə yer alan fərqli məsələlərə toxunaraq Naxçıvanın Azərbaycanın ərazisi kimi tanınmasında, ona muxtariyyət statusunun verilməsində hər iki tarixi sənədin ölkəmiz üçün əhəmiyyətindən danışıb. Qeyd olunub ki, dahi öndərin Naxçıvan muxtariyyətinin qarantı kimi Qars müqaviləsini daim gündəmdə saxlaması bu tarixi sənədin vacibliyindən xəbər verir. Bu gün də mənfur düşmənlərimizin Qars müqaviləsinin ləğvi ilə bağlı xam xəyallarından əl çəkmədiyini bildirən məruzəçi bu arzuların reallaşmayacağına əminliyini ifadə edib.

Daha sonra “Saat Meydanı” turistik istirahət mərkəzində Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş yubiley tədbiri



keçirilib.

Tədbiri Azərbaycan Milli Elmlər Akademiyasının İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov açaraq Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, ölkəmizdə 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ədəbiyyatımıza, milli-mənəvi dəyərlərimizə, klassik irsimizə göstərilən diqqətin bariz nümunəsidir. Bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Nizami Gəncəvinin əsərləri dünyanın əksər mədəni xalqlarının dillərinə tərcümə olunmuşdur. Bunun nəticəsidir ki, nizamişünaslıq dünya şərqşünaslıq elminin məxsusi bir istiqamətinə çevrilmişdir. Yurdumuz Azərbaycan isə dünya nizamişünaslıq elminin əsas mərkəzidir. Nizami Gəncəvi dünya ədəbiyyatında Azərbaycanın qüdrətli təmsilçisi, böyük elçisidir.

Daha sonra Nizami Gəncəvinin şeirləri bədii qiraət edilib, əsərlərinə həsr olunmuş kiçik tamaşalar göstərilib.

“Yunus Əmrə-700” adlı tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Yazıçılar Birliyinin sədri Asim Əliyev Yunus Əmrə yaradıcılığının müxtəlif fəlsəfi cərəyanlara məxsus olan ideyalarla səsləşən aspektləri haqqında danışıb. Asim Əliyev Yunus Əmrə yaradıcılığı və Qərb fəlsəfəsi arasında narsizm ideyası kontekstində maraqlı müqayisə apararaq türk milli-əxlaqi düşüncə sisteminin möhkəm tarixi köklərə söykəndiyini və bu dərin köklərin Qərb ideoloji buxovlarından qorunmasının zəruriliyini qeyd edib.

Sonra TÜQVA əsas mərkəzinin mətbuat katibi Ramazan Orakın Yunus Əmrənin həyat və yaradıcılığı haqqında geniş nitqi dinlənilib. Tədbirin sonunda sufi şairi Yunus Əmrənin ədəbi yaradıcılığından olan şeirlər səsləndirilib.

Daha sonra düşərgə iştirakçıları “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər.

Türkiyə tarixi və mədəniyyətinə dair təlimdə isə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, dosent Emin Şıxəliyevin və TÜQVA - Xarici əlaqələr koordinatoru Elif Habipin Türkiyə tarixi və mədəniyyətinə dair mövzu ilə bağlı çıxışları olub. Sonra gənclərin



sualları cavablandırılıb.

Düşərgənin iştirakçıları ilə həmsöhbət olub səfərlə bağlı təəssüratlarını öyrəndik. İlk həmsöhbətimiz Bakı şəhərindən düşərgəyə qatılan *Aydan Ağayevadır*. O bildirdi ki, Zəfər Düşərgəsi layihəsinin həyata keçirilməsində əsas məqsəd Vətən müharibəsində qazandığımız qələbəni türk qardaşlarımızla birlikdə qeyd etmək və bu əlaqələri daha da möhkəmləndirməkdən ibarətdir. Naxçıvan Muxtar Respublikası ideoloji-siyasi əhəmiyyət kəsb edən bir diyar olduğuna görə düşünürəm ki, ideal bir məkanda görüşmüşük. Naxçıvanın ən qədim yaşayış məskənlərindən biri sayılan Ordubad şəhərində Azərbaycan tarixində böyük önəm daşıyan görkəmli şəxsiyyətlərin ev-muzeyləri ilə tanış olduq. Ekspozisiyada nümayiş olunan Ordubadın qədim tarixini əks etdirən eksponatlar, o cümlədən mühüm elmi və tarixi əhəmiyyət kəsb edən arxeoloji qazıntılar nəticəsində tapılan əşyalar, dekorativ-tətbiqi sənət nümunələri çox maraqlı idi. Ümumiyyətlə, Naxçıvan qədimliyin və müasirliyin çiyin-çiyinə addımladığı ecazkar məkandır.

Türkiyə Respublikasının vətəndaşı *Gürkan Demir* dedi ki, mən Naxçıvanda, eləcə də onun səfalı bölgələrindən biri olan Ordubadda ilk dəfə idi olurdum. Bu şəhər tarixi bir şəhərdir. Yolboyu dağların müxtəlif rənglər fonunda misilsiz görünüşü, xoş mənzərələr məni cəlb etdi. Qədim tarix, mədəniyyət, incəsənət nümunələri, bu yurdun yetirmələri olan ziyalılar və onların fəaliyyətləri ilə bağlı ətraflı məlumat əldə etdim. Burada Naxçıvanın görkəmli şəxsiyyətlərinin ev-muzeyləri ilə tanış olduq. Biz Azərbaycanın ədəbiyyatının, mədəniyyətinin, tarixinin nə qədər qədim, zəngin və yüksək olduğunu gördük. Tarixi eramızdan əvvəl III-I minilliklərə söykənən, adına müqəddəs “Qurani-Kərim”də rast gəldiyimiz Əshabi-Kəhf ziyarətgahı İslam dininə xas müqəddəs dini inanc yeri kimi, Tanrının ilahi möcüzəsi kimi, bilsəniz, bizləri necə heyrətləndirdi. Mən burada Ulu Yaradandan xalqlarımız üçün sülh, əmin-amanlıq, firavan həyat, bir də dostluğumuzun daim var olmasını dilədim. Bura, həqiqətən də, Naxçıvanın əfsanələr diyarı, müqəddəs bir yer olduğunu bir daha göstərir.

Növbəti müsahibimiz Türkiyə Respublikasının Marmara şəhərindən olan *Elif Dəmirbaş* qeyd etdi ki, hər kəsə Naxçıvanın gözəlliklərini görməyi tövsiyə edirəm. Buranın çox təmiz və saf havası var. Xüsusən də Batabat səfəri məni daha çox cəzb etdi. Bu möcüzələr məkanına çatdığım zaman, sanki bütün təbiət gözəlliklərinin əks olunduğu



ecazkar bir tablo ilə qarşılaşdım. Hər rəngində bir məna, hər mənasında bir tarix olan bu ünvan mənə çoxəsrlik tarixə malik Naxçıvanın qədim türk torpağı olduğunu bir daha xatırlatdı. Geri dönəcəyimi düşündükdə təəssüflənirəm. Bir daha bura gələcəyim günü səbirsizliklə gözləyəcəyəm. Ümid edirəm ki, əbədi birlik və bərabərliyi əks etdirən bu səfərlər daimi olar.

“Hər iki qardaş ölkənin gənclərini qədim Naxçıvan yurdunda birləşdirən təşkilatçılara öz dərin minnətdarlığımı bildirirəm”, – deyən Türkiyə Gənclik Vəqfinin könüllüsü *Mərt Can Duman* söylədi ki, Naxçıvanın qədimliyi, gözəlliyi ilə orta məktəbdə oxuduğum vaxtlardan tanış idim. Müəllimimiz Möminə xatın türbəsi ilə bağlı bizə danışarkən bu əzəmətli və tarixi tikilinin məhz Naxçıvan şəhərində olduğunu demişdi. Gözəlliyi ilə gözoxşayan bu məkanı, əzəmətli Möminə xatın türbəsini görmək isə bu günə nəsib imiş. Həqiqətən, Naxçıvan maraqlı şəhərdir. İlk qədəm qoyduğumuz andan özgə bir torpaqda deyil, elə türk torpağında olduğumuzu hiss etdik. Havası təmiz, suyu büllur kimi saf olan Batabat, dağların köksündə özünə ecazkar mənzərələr yaratmış Ağbulaq isə əsl təbiət möcüzəsidir. Ümid edirəm ki, bu səfər son olmayacaq. Çünki, həqiqətən, Naxçıvan yaddaşlardan silinməyən ünvandır.

*Azərbaycan 28 ildən sonra Qarabağı işğaldan azad etdi, Qarabağa sahibləndi. Bir daha onun olduğunu, bundan sonra kimsənin ona başqasının yiyələnə bilməyəcəyini göstərdi. Xalqımız 44 gün müddətində əsl vətənpərvərlik nümayiş etdirərək Ali Baş Komandanımızın ətrafında bir “Dəmir yumruq” kimi birləşdi. Müharibənin ən çətin günlərində qardaş Türkiyə səsimizə səs verdi. Təsadüfi deyil ki, bu səfərdə türk qardaşlarla birgə iştirak etməyimiz tarixi birlik və bərabərliyin bariz nümunəsidir. Çünki geriyə dönüb xalqımızın keçdiyi qanlı-qadalı tarix yoluna baxsaq, görərik ki, ən çətin günlərimizdə türk qardaşlarımız bizi bir an belə olsun tək buraxmayıb. Bu səmimiyyətə Zəfər Düşərgəsində bir daha şahid olduq. Biz inanırıq ki, qərinələrin şahid olduğu bu əlaqələr bundan sonra da biz gənclərin uğurlu addımları ilə davam edərək dünyaya bir örnək olacaq.*

**✍ Aytac CƏFƏRLİ**
**✍ Məcid RƏŞADƏTOĞLU**
**✍ Gülcamal TAHİROVA**

## Gənclərin *“Yay məktəbi”* başa çatıb



Gənclərin istirahətini səmərəli təşkil etmək məqsədilə Ağbulaq İstirahət Mərkəzində təşkil olunan “Yay məktəbi” fəaliyyətini başa vurub. Layihə 3 günlük müddəti əhatə edib.

İlk gün iştirakçılar mərkəzin turizm imkanları, ərazidəki fəaliyyət növləri ilə tanış olublar. Gənclərə tədbirin məqsədləri və proqramı haqqında məlumat verilib. Gün ərzində gənclər müxtəlif idman oyunları və “Fərdi Xəmsə” intellektual oyununda iştirak edib, onlar tərəfindən yumoristik səhnəciklər nümayiş olunub. Gecə saatlarında isə Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimova həsr edilən “Poladın 7 anı” sənədli filmi izlənilib.

İkinci gün Ağbulaq kəndi ərazisində gəzintidə iştirak edən gənclər nahar fasiləsindən sonra “Vətəni tanı” və “Axtar tap” intellekt yarışlarında bacarıqlarını nümayiş etdiriblər.

“Yay məktəbi”nin sonuncu günü iştirakçılar fotomüsabiqə və “Gələcək üçün maliyyə” mövzusunda təlimdə iştirak ediblər. Proqrama əsasən təşkil olunan fəaliyyət növlərində fərqlənən gənclərə, müsabiqə və yarışların qaliblərinə fəxri fərmanlar təqdim edilib.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunmuşdu.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Toplantılar keçirilib

“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı”na əsasən taqım komandirləri, bölük, batareya komandirləri və müavinləri ilə toplantılar keçirilib.

Toplantılarda əsas diqqət zabitlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və komandir keyfiyyətlərinin təkmilləşdirilməsinə yönəldilib.

Zabitlər müxtəlif ixtisaslar, o cümlədən taktiki-xüsusi və rabitə hazırlığı üzrə keçirilən praktik məşğələlərdə iştirak ediblər.

Qarnizonun Təlim-Tədris Mərkəzində zabitlərə hərbi topoqrafiyadan, hüquq və mənəvi-psixoloji hazırlıqdan nəzəri dərslər keçilib.

Sonda zabitlərin keçilən dərslər üzrə nəzəri bilikləri və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Toplantıların yekununda qarşıya



qoyulmuş məqsədlərə nail olunduğu vurğulanaraq hər bir zabitə fərdi tapşırıqlar və yeni tədris dövrünə hazırlıq üzrə göstərişlər verilib.

**Kənan CƏLİLOV**

## *“Gələcək üçün maliyyə”* təlimlərinə start verilib

*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindən icrasına başlanılmış “Gələcək üçün maliyyə” layihəsi çərçivəsində ilk təlim Ağbulaq İstirahət Mərkəzində keçilib.*



İlk olaraq Maliyyə Tədris Mərkəzinin əməkdaşı layihə barədə ətraflı məlumat verib, əhəmiyyəti və aktuallığı barədə danışıb.

Tədbirin proqramına uyğun olaraq mərkəzin əməkdaşı Pərviz Babayev tərəfindən “Gələcək üçün maliyyə” mövzusunda hazırlanmış təlim materialı təqdim edilib. Tələbələrin bu mövzular ətrafında bilik səviyyələrinin yoxlanılması məqsədilə interaktiv mərhələ keçilib. Bu mərhələdə 5 komanda iştirak edib və iştirakçılara mərhələnin nəticələrinə müvafiq fərqləndirici sertifikatlar və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

“Şərq qapısı” – 100

# Bir əsrdir, yol gələn söz və fikir lokomotivi




***Mətbuat millətin inkişaf göstəricisi, tarixin yazılı salnaməsidir. Kütləvi informasiya vasitələri sırasında yaranma tarixinə görə televiziya, radio, internet və digər informativ vasitələrdən öncə gələn qəzetçilik anlayışı günümüzdə də aparıcı mövqeyini qorumuş, müasirləşərək dövrün tələblərinə uyğun formalaşmışdır. 146 illik tarixi olan Azərbaycan mətbuatının zəngin ənənələrini yaşadan, birərslik zaman kəsiyində muxtar respublikamızın inkişaf salnaməsini öz səhifələrində tarixə çevirən, qədim diyarın informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynayan, Naxçıvanda qəzetçilik ənənələrini formalaşdıraraq geniş oxucu kütləsinin rəğbətini qazanan, maarif və mədəniyyətin, elmin inkişafına xidmət etməklə bərabər, yaradıcı insanların üzə çıxmasında, jurnalist kadrların hazırlanmasında baza rolunu oynayan “Şərq qapısı” qəzetinin ilk nömrəsinin işıq üzü görməsindən 100 il keçir.***

Bəşəriyyətin iki böyük kəşfindən biri çörək istehsalıdırsa, digəri kağız emalıdır. Hər ikisi də elə bəşəriyyətin özünə, bəşər övladına xidmət edir, onu cismən və ruhən qidalandırır. Bəşəriyyətin ikinci böyük kəşfi olan kağız müasir yazı üçün əvəzsiz və zəngin xammaldır. Daşın-qayanın, ağacın, dərinin üstündə cızılmaqdan başlayıb yazının bünövrəsi. Ta ki tarixboyu böyük inkişaf yolu keçə-keçə təkmilləşərək gəlib indiki müasir səviyyəyə çatıb. Bu gün adi məktublardan tutmuş qəzet, jurnal, kitablara qədər hamısında biz bəşəriyyətin ikinci böyük kəşfi olan kağız məmulatlarından kütləvi istifadənin şahidiyik. Yazının xam materialı olan bu kağızlara istər məktub şəklində olsun, istər qəzet-jurnal, istərsə də kitab şəklində gözümüzün nurunu axıda-axıda ürəyimizin səsini köçürürük. Bu kağızları müqəddəs eləyən bir səbəb də məhz onun üzərində sözlər vasitəsilə ifadəsini tapmış düşüncə və duyğularımızın yaşamasıdır. Bəli, kağız da, bəyaz da, cüng də, dəftər də, kitab da düşüncələrimiz, duyğularımız səssizcə, sakitcə dil açıb danışır və beləcə, bizi heyrətamiz və munis bir dialoqa çəkir. Beləliklə, cansız görünən kağız parçası ilə biz için-için, sakitcə söhbət edirik...

100 ildir ki, naxçıvanlıların söhbət elədiyi, xoş gündə sevincini, dar gündə isə qəmini bölüşdüyü bir qəzet var – “Şərq qapısı”... Bəli, bir əsrdir ki, oxucuları ilə ünsiyyətdədir “Şərq qapısı” qəzeti. Muxtar respublikamızın neçə-neçə dəyərli qələm sahibləri zəkalarının işığı ilə işıqlandırıblar bu qəzeti, gözlərinin nurunu töküblər bu qəzetin səhifələrinə. Bu minvalla işıqlı və nurlu bir yol göstərib ötən 100 il ərzində hər bir oxucusuna. Söz yox ki, oxucular da səssiz-səmirsiz dayanmayıblar bu dialoqda. Onlar da ürək sözlərini boşaldıblar bu səhifələrə, münasibətlərini bildiriblər söz, qələm əhlimizə.

Bu gün də cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində, muxtar respublikamızın sosial-iqtisadi və ictimai-mədəni həyatının işıqlandırılmasında, milli-mənəvi dəyərlərin qorunmasında, günümüzün quruculuq və inkişaf salnaməsinin yazılıb gələcək nəsillərə çatdırılmasında mühüm bir tarixi inkişaf yolu keçən “Şərq qapısı” qəzeti məzmun və şəkilcə də təkamül yolu qət etmişdir. Bəs bu ad, şəkil və məzmun dəyişmələrinin ilk baxışda üzdə görünməyən qatlarından nələr boy göstərib? Qəzetə əbədiyaşarlıq məzmunu verənlərin bu mübarək missiyaya canlı bir ömür sərf etmələrində. Vətən uğrunda onun əsgərləri döyüşüb canlarını fəda etdikləri kimi, qəzetin də üstündə öz yazı dəstxəti ilə jurnalist ordusu çalışıb fədakarlıq göstərir. Başqa sözlə, qəzetin yaşından, yubileyindən söhbət gedəndə, onun səhifələrində qələmləri ilə vuruşan-çarpışan ziyalılarımızın ömür kitabları, əməl dəftərləri gəlib gözlərimizin önündən keçir. Güzgü insanın özünü görməsi, bu zaman müşahidə etdiyi əyər-əskikləri düzəldib, özünü nizama-formaya salması üçündür. Bu mənada, “Şərq qapısı” qəzeti Naxçıvanın ictimai-siyasi, ədəbi-mədəni həyatının güzgüsüdür. 100 ildə çox adamlar gəlib-gedib onun səhifələrindən, özləri də bilmədən bir tarix yazıblar, özləri də tarixə qovuşub, yazdıqları da. Blokadanın ağır çətinliklərini, Sədərək hadisələrini, 20 Yanvar və Xocalı faciəsini, 30 illik zaman dilimində işğal altında olan Qarabağımızı öz səhifələrində əks etdirməklə yanaşı, Günnüt zəfəri, Aprel döyüşləri, işğal faciəmizin sona çatması və Qələbə müjdəsi də “Şərq qapısı”nın səhifələrində əksini tapdı. Beləcə, dar günümüzdə ümidverici sözlərlə bizi səbrə dəvət edən qəzetimiz şad günümüzdə də ürəyimizdən keçənlərin carçısı oldu. İndi 100 yaşlı bir müdrik ağsaqqal kimi Qarabağa qayıdış salnaməmizi də səhifələrində bəzəyən “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamı mətbuat işçiləri və “Şərq qapısı” qəzetinin daimi oxucuları tərəfindən sevinclə qarşılandı. Sərəncam təkcə “Şərq qapısı” qəzetinə və onun əməkdaşlarına deyil, muxtar respublikamızda işıq üzü görən rayon qəzetlərinə və biz mətbuat işçilərinə verilən yüksək dəyərin ifadəsidir.

86 ildir ki, rayon sakinlərinin tribunasına çevrilən, onların dünyagörüşünün formalaşmasında, tarixi-mədəni irsimizin qorunmasında, yaşadılmasında və təbliğ olunmasında mühüm rol oynayan, oxucu marağını oxşayan “Arazın səsi” qəzetinin əməkdaşları da birərslik yaşı olan “Şərq qapısı” qəzeti ilə əməkdaşlıq edir, Culfa rayonunun ictimai-siyasi, mədəni, iqtisadi həyatında əldə olunmuş ən son yenilikləri, uğurları bu qocaman media qurumu vasitəsilə oxuculara çatdırır, salnamələşdirirlər. 146 il bundan əvvəl, “Əkinçi”nin əkdiyi toxumların məhsulu və varisi olan “Şərq qapısı” qəzetini 100 illik yubileyi münasibətilə Culfa Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan “Arazın səsi” qəzetinin əməkdaşları adından təbrik edir, milli mətbuatımızın yüksəlişi yollarında jurnalist həmkarlarıma uğurlar arzulayırıq.

*100 yaşın mübarək, doğma və dəyərli qəzetimiz!*

**Alim AĞAYEV**
***“Arazın səsi” qəzetinin redaktoru***

***Ölkəmiz müstəqillik qazandıqdan sonra yeni mərhələyə qədəm qoyan hüquq islahatları, eyni zamanda cəza siyasəti daha mütərəqqi amal və niyyətlərə söykənməyə başladı. Belə ki, cəza sisteminin müasir dövrün tələblərinə və ictimai inkişaf tempinə uyğun olaraq qurulması ilə cinayətkarlığa təsir edən yeni cəza sistemi formalaşdı. Cəza təyinetmə zamanı cinayətin ağırlıq dərəcəsi və bir çox səbəblər nəzərə alınır ki, cəza öz sosial mahiyyətinə nail olsun. Eyni zamanda cəzanın çəkilməsi ilə yanaşı, ondan azad olmanın şərtləri müvafiq qanunvericiliklərlə tənzimlənir. Cəzadan azad etməyə əfvetmə və amnistiya aktları, cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə, cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, xəstəliyə və qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslar daxildir.***

*Mütəxəssis sözü*

# Cəza-icra siyasətindəki yeniliklər humanizm prinsiplərinə əsaslanır

Əfvetmə və amnistiya institutları hüquqa və qanunvericilik sisteminə yad olmasa da, onların geniş tətbiqinə müstəqillik illərində başlanılmışdır. Əfvetmə məhkum olunmuş şəxsə göstərilən humanizmin təzahürüdür və fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Qeyd edək ki, “Əfvetmə haqqında Əsasnamə” 2001-ci ildə təsdiq edilib və həmin Əsasnamə ilə konkret cəza növləri üzrə əfvetmə barədə müraciətin müddətləri müəyyənləşdirilmişdir. İslah işləri, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma və böyük ictimai təhlükə törətməyən cinayətə görə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxs barədə hökm qanuni qüvvəyə mindikdən sonra müraciət oluna bilər. Müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına və ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olmuş şəxslər isə törədilən cinayətlərin təsnifatına görə, az ağır cinayət törətməyə görə cəza müddətinin ən azı üçdəbir hissəsini, ağır və xüsusilə ağır cinayət törətməyə görə cəza müddətinin ən azı yarısını çəkdikdən sonra, ömürlük azadlıqdan məhrum edilən şəxslər isə cəza müddətinin on ili keçdikdən sonra əfv üçün müraciət edə bilərlər. Bu zaman məhkumun cəzası azaldıla, yaxud ölkə Prezidentinin qərarı ilə tamamilə ləğv edilə bilər. Əfvetmə barədə müraciət məhkum olunmuş şəxs, onun müdafiəçisi, nümayəndəsi və ya qanuni nümayəndəsi tərəfindən verilə bilər.

Cəza çəkməkdən azad etmənin əsaslarından biri də amnistiya aktıdır. Amnistiya fərdi qaydada müəyyən edilməyən aktdır, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir və müəyyən sayda cinayət işləri üzrə tətbiq olunur. Amnistiya aktı ilə şəxslər cinayət məsuliyyətindən, məhkum olunmuş şəxslər cəzadan azad, yaxud cəza müddəti azaldıla və ya çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Verilən bir amnistiya aktında yuxarıda sadalanan məsələlərin hamısı həll edilməyə də bilər. Amnistiyanın tətbiqi qaydaları Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilir. Qeyd edək ki, 1994-cü ildə “Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında” Qanunla 1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə Sovet qoşunlarının qanunsuz yeridilməsi ilə əlaqədar törədilmiş cinayətlərdə, Xocalı soyqırımının baş verməsində, Azərbaycan Respublikası torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsində təqsirli olan şəxslər haqqında amnistiya aktlarının tətbiq olunması qadağan edilmişdir.

Cəzaların humanistləşdirilməsi istiqamətində əfvetmə və amnistiya aktlarının geniş tətbiqi hələ görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründən başlanılmışdır. Məhz ulu öndərin təşəbbüsü ilə 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölüm cəzası Azərbaycanda ləğv edilmişdir. 1995-2003-cü illərdə ulu öndər tərəfindən 32 əfv Sərəncamı imzalanmışdır. Ümumilikdə, müstəqillik dövründə Azərbaycanda 67 əfv, 11 amnistiya aktı qəbul edilmişdir. Ölkə Prezidentinin bu ilin mart ayında 431 məhkum olunmuş şəxsin əfv olunması barədə Sərəncamı ilə cəza siyasətində artıq ənənə halını almış humanizmin məntiqi davamını bir daha görmüş olduq.

Qeyd edək ki, ölkəmizdə hüquqi islahatların davamı olaraq “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” 2017-ci il 10 fevral tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Həmin Sərəncam cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəzaların və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsinə əlverişli imkan yaratmışdır. Sərəncamın mahiyyətinə uyğun olaraq qanunvericilik aktlarına bir sıra müvafiq əlavə və dəyişikliklər edilmişdir. Cinayət Məcəlləsinə, ümumilikdə, 300-ə yaxın dəyişiklik olunmuş, bütövlükdə, 15 cinayət məcəllədən çıxarılmışdır. Bunlar daha çox mülkiyyət və iqtisadi fəaliyyət sahəsində olan, habelə ehtiyatsızlıqdan törədilən cinayətlərdir. Həmçinin Cəzaların İcrası Məcəlləsinə “Elektron nəzarət vasitələrinin tətbiqi xüsusiyyətləri” və “Probasiya nəzarəti” ilə bağlı edilən yeni maddələr şərti məhkumetmə institutunun daha geniş tətbiq edilməsini nəzərdə tutur.

Müasir elektron nəzarət vasitələrindən istifadə yeni üsullardan biridir. Onlardan ən geniş yayılanı “elektron qolbaq” qurğusudur. Qeyd edilməlidir ki, ötən müddət ərzində muxtar respublikanın ərazisində “elektron qolbaq” qurğusunun tətbiqi üçün Ədliyyə Nazirliyində zəruri maddi-texniki baza yaradılmış və tətbiq edilməkdədir. Bu vasitələrin köməyi ilə şəxsin yerdəyişmələri izlənərək, yaşayış yerini və ya ərazini tərk etməsi dərhal qeydə alınır.

Probasiya nəzarəti azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilən şəxslərə (azadlığın məhdudlaşdırılması, cərimə, ictimai işlər, islah işləri və sair) və ya şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş, yaxud cəza çəkməsi təxirə salınmış şəxslər və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslər barəsində tətbiq edilir.

Cəza siyasətinin humanizm dəyərləri əsasında inkişaf etdirilməsi üzrə tədbirlər muxtar respublikada uğurla həyata keçirilməkdədir. Məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının etibarlı təminatı onların maddi-məişət şəraitinin, tibbi-sanitariya təminatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. 2008-ci ildə ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda müasir, beynəlxalq təcrübə əsasında və Avropa standartlarına cavab verən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi inşa olunmuş və istifadəyə verilmişdir. Blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasında həbs dövründə məhkum və təqsirləndirilən şəxslərin valideynlərinin, yaxınlarının görüşə getmələri bir sıra çətinliklər yaradırdı. Həmin müəssisənin tikilməsi ilə bu çətinliklər aradan qaldırıldı.

Sözsüz ki, humanist tədbirlərin tətbiqi məhkumların özləri və onların yaxınlarının həyatında mühüm əhəmiyyət kəsb edir, digər məhkumların da islahına stimul yaradır.

**Siyavuş BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

*İtmişdir*

“Cahan Alış-Veriş Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN-0200603761) məxsus qeydiyyat sənədləri və möhür itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Əliyev Nofəl Yaqub oğlunun adına verilmiş JN-750A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Əhmədova Xuraman Həsən qızının adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Quliyev Məhərrəm Cəfərqulu oğlunun adına olan JN-496A inventar nömrəli, 10215018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əhmədov Anar Aydın oğlunun adına olan evin 1136 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kəndində yaşamış Ramazanov Əhməd Həbib oğlunun adına verilmiş 72A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 601